# Duyuqlar

Bəhmən SULTANLI



**Danışmaq, hər hansı ağıllı fikir söyləmək bacarığı özü başlıca uğur amillərindəndir. Elə danışmaq olar, düz yolla gedəni əyri yola çəkər, elə danışmaq olar, əyri yolla gedəni düz yola çəkər. Bu, insanın özəl keyfiyyəttlərindəndir. Bunları nəzərə almamaq bir sıra müşküllərin yaranmasına səbəb ola bilər. Odur, bunları nəzərə almayan insanların varlığı, mövcudluğu da bir çözülməsi mümkün olmayan problem yarada bilər. Bir var söz söz xətrinə deyilsin, bir də var söz iş xətrinə deyilsin. Bir var, düşünüb söz deyəsən, bir də var, söz deyib düşünəsən. Söz deyəndən sonra düşünənləri çox zaman uduzan görmüşəm. Təəssüf...**

(əvvəli ötən sayımızda

**D122.Erməni iştahı**

***"Erməni iştahıgeniş gözüdar olar" deyiblər. Bu, doğrudan da belədir. Bir zamanlar, xristianların "şeytan əməli"nin gücüylə dünyada at oynatdığı dönəmdə xristian təəssübçüsü olan güclərin zorakı yolla Azərbaycandan qəsb eləyib verdiyi torpaqlarda devlət qurub, sonra da ruslar vasitəsilə yeni torpaqlar qəsb eləmək fikrinə düşüb. Bu qalsın bir yana, sonra da Azərbaycan neftinə göz tikib. Doğrudur, arzuları gözlərində qalacaq, Ancaq istəyirlər, Azərbaycan neftindən gələn pulla atom silahına sahib olsun. İlk öncə xristianları qırsın, dünyanı "xristianların əlindən" çıxardıb özününküləşdirsin.*** Bununla, dünyaya iyiyə çıxsın. Xristianları ona görə qırmaq istəyirlər, onlar dünyanı erməniyə vermək istəməzlər. Bunları 1972-ci ildə Moskvada aspirant yataqxanasında yaşayarkən Vanik (düzgün adı Qenrix Kosyan) adlı bir ermənininin ağzından eşitmişəm. Bu erməni yazısını buraya çıxartmaq nəyə lazımdır? Bu yazı bütün ermənilərin istəyidir. Ancaq özülü olmayan istəyə nə verərlər! Erməniyə demək gərəkdir: "ermәni, get işlə, güclə məşğul ol, şeytan əməllərinə qurşanma!". Düzdür, ermənilər xristian təəssübçülüyü olmadan heç zaman zəif də olsa, devlət qurmaq qüdrətinə sahib olmayıblar.

**D123.İkisi də müsəlman**

Müsəlman müsəlmandır. Onun nə şiəsi, nə sünnisi? Aranızda həmişə ziddiyyət mövcud olacaq. Daim çəkişmələriniz baş verəcək. Niyə? Çünki hansısa bir molla istəyib İslam dinində bir görəv tutsun. Məqsəd İslamın xeyirinə olmayacaq. Aralarında münaqişələr qaçılmaz olacaq. şiə-müsəlmanları qaldıracaq sünninin üstünə, sünni də müsəlmanları qaldıracaq sünninin üstünə. Hər iki tərəf müsəlman! Müsəlman qalxacaq Müsəlmanın üstünə. Müsəlman Müsəlmanın qanını tökəcək. Məqsəd nədir? Məqsəd öz mənafeləri yolunda qan axıtmaq1 Qanı töküləcək müsəlmanın, sonu yaxınlaşacaq müsəlmanın... O başındakı əmmamə səni yad gülləsindən xilas etməyəcək.

**D124.Səfərovun Qurgeni**

Ramil Səfərovun öldürdüyü Qurgen Markaryanla yanaşı başqa erməni zabiti dəfələrlə Ramil Səfərova ilişib, Azərbaycanı, azərbaycanlı qadınları və ən dəhşətlisi, Azərbaycan bayrağını təhqir edib. Bu hallar ardıcıl, alçaldıcı şəkildə davam etdirilib. Bu fikirlər məhkəmə qərarındadır (link https://modern.az/az/news/30819). Doğrudur, Ramil Səsərovu yuxuda ikən öldürüb Ramil Səfərov haqqında hədyanı danışanlar düşünmürlər, o qədər adamın arasında onu necə öldürmək olardı – bu, birincisi. İkincisi, Markaryan oyaq ikən Ramil onu öldürmək istəsəydi, Markaryan hay-küy qaldırardı hadisə baş tutmazdı, Ramil həbs olunardı. Deməli, təkcə o yol qalırdı, Səfərov Markaryanı öldürsün, özü də yatdığı yerdə. Düşmən öldürülməlidir. Xanımlar, düşmən öldürülməlidir. Ramilin hərəkətinə mız qoyanlar, körpə uşaqların başına ermənilərin gətirdiyi oyunları dəstəkləmiş olmurlarmı?

**D125.Erməni kəşfçiliyi**

***Bir neçə güclü Avropa və Batı devlələri özgə devlətlərlə haqq-hesab çürütməkdə ermənileri uzun axtarışdan sonra münasib xalq kimi "kəşf" etdilər. Gördülər, ermənilər satqınlığa yarayırlar, etibarsızdırlaröz mənafelərindən ötrü hər cür işə qurşanmağı bacarırlar. Onlar öz bədbaxtlıqlarını anlamayacaq dərəcədə anlamazdırlar.*** Onlar anlamırlar, hər hansı güclü devlət, o sıradan da Rusiya vasitəsilə özgə torpaqlarını tutub orada əbədi yaşamağa risq etməyin gələcək təhlükəsi böyükdür. Erməni başbilənləri anlamırlar, Rusiya öz mənafeləri ucbatından onları əbədi bədbaxt etməkdə heç zaman peşimançılıq keçirən deyillər.. Ermənilər anlamırlar, ruslar onları tarixin küncünə atmaq yolu ilə gedirlər və bilmirlər, ruslar onları öz mənafeləri xatirinə çıxış yolunu tapa bilməyən bir səfilə çevirməkdədirlər. Onlar özlərini artıq rusların tələsinə salıblar.

**D126.Zəngəzur Azərbaycan torpağıdır**

Yanlış demirəmsə ölkə başçısı İlham Əliyev böyük bir Uluslararası toplantıda dedi: "Zəngəzur Azərbaycan torpağıdır. Böyük Türk Dünyasını parçalamaq üçün Zəngəzuru Azərbzycandan ayırıb Ermənistana birləşdiriblər. Bu, türkə qarşı ən böyük ədalətsizliklərdən biri olub". Ancaq tarixdə belə hallar, belə ədalətsizliklər baş verir. Bununla, tarix heç zaman ədalətsizliklər yığnağına çevrilmir. Zaman gəlir, haqq öz yerini tapır, ədalət haçaqsa bərpa olunur. Biz zorzkı yolla alınıb ermənilərə verilmiş Zəngəzurumuzu düşməndən geri qaytaracağıq. Buna şübhə eləyənlər həyat həqiqətlərindən uzaq düşmüş adamlardır. İnanılmazların inanılana çevrildiyi zamanlar da az olmur. Bizim unutmadığımız, çalışqanlığımız belə işlərdə mühüm amildir. Zəngəzurumuzu qaytarmaq fikrimizin reallaşması yolundan bir addım da kənara çəkilməməliyik. Hər şey, geci-tezi baş doğruya çevrilir. Ancaq tezləşdirmə imkanları da itmir. Tezləşdirmə iradəmizdən, cəsurluğumuzdan, çevikliyimizdən, ağıl, zəka dərəcəmizdən asılıdır. Zəngəzurun bizim olduğunu heç zaman yaddan çıxartmamalıyıq. 25.05.2020

**D127.İnsanın özəl keyfiyyəti**

Danışmaq, hər hansı ağıllı fikir söyləmək bacarığı özü başlıca uğur amillərindəndir. Elə danışmaq olar, düz yolla gedəni əyri yola çəkər, elə danışmaq olar, əyri yolla gedəni düz yola çəkər. Bu, insanın özəl keyfiyyəttlərindəndir. Bunları nəzərə almamaq bir sıra müşküllərin yaranmasına səbəb ola bilər. Odur, bunları nəzərə almayan insanların varlığı, mövcudluğu da bir çözülməsi mümkün olmayan problem yarada bilər. Bir var söz söz xətrinə deyilsin, bir də var söz iş xətrinə deyilsin. Bir var, düşünüb söz deyəsən, bir də var, söz deyib düşünəsən. Söz deyəndən sonra düşünənləri çox zaman uduzan görmüşəm. Təəssüf...

**D128. Qovğa səbəbi**

Heçdən yersiz, lüzumsuz dava-dalaşa, əsası olmayan, yerinə düşməyən çığır-bağıra, istənilməz başağrısı gətirən qovğaya səbəb olacaq bir şey varsa, bunun sonucu macəra "qaynatmaq"dır. Beləsinə çığır-bağırçı, dava-dalaşçı, qovğaçı, çuğul adam deyirlər. Beləsindən şər iş yan keçməz.

**D129. Qəbahət**

***Biri bir xoşagəlməz iş görür. Ona bu işini qəbahət sayanlar olur. O, qımışa-qımışa, boynunu əyə-əyə, yaltaq sifətində həmin hərəkətini davam etdirir. Yenə qəbahət sayanlar olur, yenə qımışa-qımışa, boynunu əyə-əyə yaltaqcasına (buna "quyruq bulaya-bulaya" də deyirlər) həmin hərəkətini davam etdirir. Bu hal beləcə davam edir. Buna "sırtıqlıq", bunun əməlinə "sırtıqlıq" deyirlər. Bir də var, "Qırmızısifət". "Qırmızısifət" oğurluğu əlində tutanda dirəşər: "yox, mən oğurlamamışam"; sözü ağzında tutanda, dirəşər: "yox, mən dememişəm"; "pambıq ağ olur" deyəndə dirəşər: "yox, pambıq qara olur". Belə adam "qırmızısifət" adam, onun bu işi qırmızısifətlik adlanır. Göründüyü kimi, "Sırtıq"ın "Qırmızısifət"dən başlıca fərqi "sırtıq"ın qımışan olmasıdır. "Qırmızısifət"in də "sırtıq"dan başlıca fərqi "Qırmızısifət"in dirəşən olmasıdır.***

**28.07.2020**